

# *Musa ASLANXANLI-75*

Hörmətli Musa müəllim!

Sizi - istedadlı şairi 75 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirdikdən sonra bir müddət Azərbaycan Yazıçılar İttifaqında çalışmısınız. Sonra uzun müddət orta məktəbdə Azərbaycan dili və ədəbiyyatından dərs demisiniz. İlk şeiriniz "Azərbaycan gəncləri" qəzetində 1968-ci ildə dərc olunub.

Sonra "Ədəbiyyat və incəsənət" qəzetində, "Bakı", "Ədəbiyyat qəzeti"ndə, "Ulduz", "Azərbaycan" jurnallarında şeirləri ilə çıxış etmisiniz. Yaradıcılığınızın ilk nümunələrindən olan "Pıçıltı-pıçıltı açır çiçəklər" şeiri ədəbi ictimaiyyət tərəfindən maraqla qarşılanıb.

Tələbəlik illərindən Xalq şairləri - Rəsul Rzanın, Bəxtiyar Vahabzadənin, Məmməd Arazın, Söhrab Tahirin, Xəlil Rza Ulutürkün ədəbi məktəblərindən təsirlənmisiniz.

Siz məcburi köçkünlük illərində qələbəyə inamınızı ifadə edən "Ad günləri qarşıdadır" kitabınızı nəşr etdirmisiniz. Kitaba daxil olan eyniadlı poemanız şəhid Milli Qəhrəmanımız Vəzir Orucova həsr edilib.

"Şuşaya gedən yol", "Qarabağa yağan yağış" kitablarınızdakı bir çox şeirlər, poemalar şəhidlərimizə, qazilərimizə və qələbəmizə həsr olunub.

"Ululardan, Babadağdan soraq aldım" əsərinizdə Azərbaycanda - Qafqaz Albaniyasında baş verən hadisələr canlandırılır.

Yaradıcılığınız barədə bir çox tanınmış ədəbiyyat biliciləri maraqlı məqalələrlə çıxış edib.

Bir çox təltif və diplomlara layiq görülmüsünüz.

Hörmətli Musa müəllim!

Sizi 75 illik yubileyiniz münasibətilə bir daha təbrik edir, uzun ömür, yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**